

*Yasəmən Qəyyumlu*

## BİZ GƏLİRİK, QARABAĞ

Ucaldı zirvəyə şəhid oğullar,
Vətəni vətənə qaytardı onlar,
Qələbə nəğməsi oxuyur yollar,
Millətin qəlbində ehtişama bax,
Biz gelirik Qarabağ!

Artıq intizarın qəddi bükülür,
Yurdumun üzündən sevinc tökülür ,
Üç rəngli bayrağın rəngləri gülür,
Sevinc köynəklidir hər dərə, hər dağ,
Biz gelirik Qarabağ!

Keçdi qəm qoxulu ağrılı çağlar,
Üşümür həsrətdən daga qucaqlar,
Ağdamda, Laçında yanır ocaqlar,
Çağlayır sinəmdə söz varaq- varaq,
Biz gəlirik Qarabağ!

Qəhrəman oğullar qalxdı savaşa,
Otuz illik həsrət çırpıldı daşa
Qubadlı, Zəngilan, Cəbrayıl qoşa,
Ürəklərdə çoşan məhəbbətə bax
Biz gəlirik Qarabağ!

Ümid çiçəkləyir vətən sözündə,
Arzular qol açıb göyün üzündə,
Zəfər tonqal çatıb Cıdır düzündə,
Şuşadan əl edir üç rəngli bayraq,
Biz gəlirik Qarabağ!

Düşmənə nifrətim xəncəri xəncər,
Hər qaya Nəbidir, hər bulaq Həcər,
Azadlıq qoxuyur indi Kəlbəcər,
Arzumu çiçək tək öz yaxana tax,
Biz gəlirik Qarabağ!

Zəfər ətirlidir Azərbaycanım,
Sevinclə damarda qaynayır qanım,
Söyləyib müzəffər baş komandanım,
Qədim yurdumuzdur bu ulu torpaq,
Biz gəlirik Qarabağ!

## Qeyrət qalasıdır Şuşa yurdumun

Mələklər sevinir göyün üzündə,
Hünər naxışlanıb oğul sözündə,
Şəhadət ətri var Cıdır düzündə,
Qeyrət qalasıdır Şuşa, yurdumun.

Dağlar unutmayıb Xanın səsini,
Dinləyir Qarabağ şikəstəsini,
İgidlər düşmənin verdi dərsini,
Qeyrət qalasıdır Şuşa, yurdumun.

Yollar şeir kimi sətirlənibdir,
Torpağın üzünə nur ələnibdir,
Natavan qəzəli ətirlənibdir,
Qeyrət qalasıdır Şuşa, yurdumun.

Şükür, bu torpaqdan qovulub yağı,
Sevinclə çağlayır İsa bulağı,
Şövqlə dalğalanır vətən bayrağı,
Qeyrət qalasıdır Şuşa, yurdumun .

Vətən, torpağına qurbandır canım,
Cəngiyə köklənib damarda qanım,
Var olsun müzəffər baş komandanım,
Qeyrət qalasıdır Şuşa, yurdumun.

Artıq çəmən-çəmən sevinir gülün,
Göz yaşı silinib Xarıbülbülün,
Ocağı sevinir dahi Bülbülün,
Qeyrət qalasıdır Şuşa, yurdumun.

Şəninə yaraşan söz gərək vətən,
Sənə heyran olub bu ürək vətən,
Şuşalı günlərin mübarək vətən,
Qeyrət qalasıdır Şuşa, yurdumun.

Yasəmən qoşulub bu xoş sorağa,
Zəfər nəğmələri qalxıb ayağa,
Döyüşçü əsgərin yazıb torpağa,
Qeyrət qalasıdır Şuşa, yurdumun.

Qədrini anlamaz hər yoldan ötən,
Odur dar macalda haraya yetən,
Haqqın dərgahına uzanıb gedən,
Həqiqət yoludur, ƏDALƏT YOLU !

Tanrı ətri verən qəlbdə yaşayır,
Arzular isidir, könül oxşayır,
Ürəkdən ürəyə sevgi daşıyır,
Məhəbbət yoludur, ƏDALƏT YOLU !

Namərdin üzünə qapı bağlayan,
Halallıq içində coşub, çağlayan,
Ləyaqət əhlini uca saxlayan,
Şərafət yoludur, ƏDALƏT YOLU !

Bir üzü cəvahir, bir üzü ləldir,
Xeyirxah niyyətdir, gözəl əməldir,
Tanrı dərgahına açılan əldir,
İbadət yoludur, ƏDALƏT YOLU !

Onda pənah tapar tənhalar, təklər,
Oduna isinir qərib ürəklər,
Sağında, solunda durub mələklər
Qiyamət yoludur, ƏDALƏT YOLU !

Önünü bağlamaz nə duman, nə çən,
Adlayıb nəsildən nəsillərəcən,
Halal adamların ömründən keçən,
Bərəkət yoludur, ƏDALƏT YOLU !

Qərib yurd yerində binələr quran,
Haram qoxusundan uzaq, yan duran,
Qəmli könüllərdə işıq yandıran ,
Mərhəmət yoludur, ƏDALƏT YOLU !

Yasəmən, sevinclə bəzənib yaxan,
Zalıma qılıncdır, məzluma qalxan,
Üç rəngli bayrağı Şuşaya taxan,
Şücaət yoludur, ƏDALƏT YOLU !

## ZAMANDIR

Allahın hökmü var, şəhadəti var,
Dünyanın varlığı, ədaləti var,
Ayın, günəşində ibadəti var,
Sədaqət ölçüsü zamandır, oğlum.

Nəfsin qədəri var, səfaləti var,
İnsanı alçaldan xəcaləti var,
Eşqi bada verən xəyanəti var,
Məhəbbət ölçüsü zamandır, oğlum.

Səbrin kasası var, səbrin dili var,
Ömrün ayları var, ömrün ili var,
Ocağın alovu, odu, külü var,
Axirət ölçüsü zamandır, oğlum.

Bəxtin sir qapısı, alın yazı var,
Təbiət gözəldir, qışı, yazı var,
Elin Yasəmən tək, qoçaq qızı var,
Ədalət ölçüsü zamandır, oğlum.

ədalət.- 2021.- 4 may.- S.7.